**TƏSDİQ EDİRƏM**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**rektoru**

**___________________ C.M.Cəfərov**

**“___” ___________ 2024-cü il**

# ADPU-NUN BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ PROREKTORLUĞU NƏZDİNDƏ QƏRBİ AZƏRBAYCAN ARAŞDIRMALAR MƏRKƏZİNİN ƏSASNAMƏSİ

**Bakı- 2024**

**1. Ümumi müddəalar:**

1.1. **Qərbi Azərbaycan Araşdırmalar Mərkəzin** (bundan sonra mərkəz) ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektorluğunun struktur bölmələrindən biri olmaqla ADPU-nun fəaliyyət istiqamətlərini priaritet seçir.

1.2. Mərkəz Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı elmi və mədəni qurumlarla əlaqələrin qurulması və qarşılıqlı iş şəraitində müvafiq fəaliyyət göstərən strukturdur.

1.3. Mərkəzin fəaliyyəti mövcud qanunvericiliyə, Təhsil qanununa, Azərbaycan Respublikası Elm və Təhsil nazirliyinin müvafiq qərar, əmr və sərəncamlarına, təlimat və metodiki göstərişlərinə, ADPU-nun nizamnaməsinə, universitet elmi Şurasının qərarlarına uyğun tənzimlənir.

1.4. Mərkəz öz fəaliyyəti dövründə beynəlxalq qurumlar daxilində türk dövlətlərinin aparıcı universitetləri analoji (Azərbaycanla bağlı araşdırmalar aparan) qurumları ilə Azərbaycanda fəaliyyət göstərən digər müəssisələrlə geniş əlaqələrin qurulmasına xüsusi yer ayırır.

1.5. Mərkəz AMEA-nın humanitar istiqamətli institutları, habelə Azərbaycan universitetlərinin elm və təhsil qurumları ilə birgə tədqiqatlara üstünlük verir və onlarla sıx əməkdaşlıq edir.

1.6. Mərkəz ADPU-nun Elmi Şurasının qərarı ilə təşkil olunur.

1.7. Mərkəzin birləşdirilməsi və ya ləğv edilməsi universitet Elmi Şurasının qərarı ilə həyata keçirirlir.

**2. Mərkəzin fəaliyyətinin məqsədi və vəzifələri:**

2.1. Mərkəzin fəaliyyətinin əsas məqsədi Qərbi Azərbaycan tarixi etnoqrafiyası, ədəbiyyatı, mədəniyyəti ilə bağlı tədqiqatların aparılmasını təmin etmək bu sahədə aparılan tədqiqatların inkşafına yeni töhfələr vermək, onun elmi-nəzəri səviyyəsinin yüksəldilməsinə və praktik tətbiqinə nail olmaq.

2.2. ADPU-nun müvafiq struktur bölmələri ilə səmərəli iş fəaliyyəti qurmaq, professor-müəllim heyətini, tələbə, magistrant və doktorantları mərkəzdə aparılan tədqiqtlara cəlb etmək.

2.3. Mərkəz xətti ilə elmi seminar, dəyirmi masa və konfranslar təşkil etmək.

2.4. Beynəlxalq və respublika əhəmiyyətli qrant layihələrində iştirak etmək və bu çərçivədə elmi tədqiqat işləri aparmaq.

2.5. Mərkəzin elmi fəaliyyətinin təkmilləşdirilməsi üçün təhlillər aparmaq və əldə olunmuş nəticələrə dair rəy və təklifləri müzakirə etmək.

2.6. Mərkəz əməkdaşlarının ixtisas səviyyələrinin artırılması üçün tədbirlər görmək.

2.7. Mərkəzin illik fəaliyyət planını və bu plana uyğun görülmüş işləri rəhbərliyə təqdim etmək.

2.8. Mərkəz əməkdaşları əmək intizamına riayiət etməli, universitetin və mərkəzin tədbirlərində fəal iştirak etməlidir.

2.9. Bu əsasnamə qanuna müvafiq standartlar çərçivəsində tərtib olunur və ona uyğun vəzifələrin yerinə yetirilməsini təmin edir.

**3. Mərkəzin vəzifə səlahiyyətləri və hüquqları**:

3.1. Mərkəzin həyata keçirəcəyi tədbirlər və hazırlayacağı təkliflər mərkəz rəhbərinin nəzarəri altında tənzimlənir.

3.2. Mərkəz elmi-tədqiqat işləri daxilində təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq hüquqlarına malikdirlər.

3.3. Əməkdaşların fəaliyyətinin stimullaşdırılması, onların rəğbətləndirilməsi və həvəsləndirilməsi üçün tədbirlər həyata keçirmək.

**4. Mərkəzin idarə olunması və strukturu:**

4.1 Mərkəzə ADPU-nun rektorunun əmri ilə təyin olunmuş müdir rəhbərlik edir.

4.2 Mərkəzin bölmə rəhbərləri və əməkdaşları ADPU-nun rektorunun əmri ilə işə təyin edilir və vəzifədən azad olunur.